# Vahid Məhərrəmovun "Kəsilməyən atəş səsləri" kitabı təqdim olundu

**Azərbaycan Yazıçılar Birliyində (AYB) tanınmış hərbi jurnalist, yazıçı-publisist Vahid Məhərrəmlinin ”Kəsilməyən atəş səsləri” kitabının təqdimatı oldu.**

Adalet.az xəbər verir ki, tanınmış qələm adamlarının, tədqiqatçıların qatıldığı tədbiri AYB-nin katibi, yazıçı İlqar Fəhmi giriş sözü ilə açdı. Vahid Məhərrəmlinin yaradıcılığı, onun ədəbi və publisist fəaliyyəti haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, Vahid Məhərrəmli əsasən Qarabağ mövzusu ilə oxucuların görüşünə gəlir. O, Qarabağ ağrı-acısına canlı şahid olaraq, onu yaşayaraq bu dərdi sətirlərə töküb: ”Hərbdən, müharibədən yazan yazıçının masası səngər olmalıdır. Evdə, rahat şəraitdə oturub, pürrəng çay içə-içə müharibədən yazılmaz. Çünki oxucunu aldatmaq olmur. O, müharibə qoxusunu hər sətirdən anlayır, belə ağrılı məqamlarda müəllifin sarsıntılarını hiss edir”.

İ.Fəhmi onu da qeyd etdi ki, Vahid Məhərrəmli həm də hərbi jurnalistdir. Qarabağ uğrunda döyüşlərdə əsgərlərlə çiyin-çiyinə, güllə altında müharibəni izləyərək, baş verən bütün prosesləri arxa cəbhəyə çatdıra bilib.

Daha sonra ədəbi tənqidçi Vaqif Yusifli çıxış edərək diqqətə çatdırdı ki, Vahid Məhərrəmlinin ”Kəsilməyən atəş səsləri” kitabına yazılmış ön sözün müəllifidir. V. Yusifli bildirdi ki, müharibədən yazmaq hər yazıçının işi deyil. Vaqif Məhərrəmlinin əsərləri müharibə təəssüratları ilə doludur. Oxucu onun hər anını yaşayır, açılan silah səslərini eşidir, vurulan yaralarınnın ağrısını duyur. O, müharibədə iştirak edən insan psixologiyasını məharətlə yarada bilir.

V. Yusifli həmçinin bildirdi ki, Vahid Məhərrəmli bir şair kimi də qələmini sınayıb və uğurlu alınıb.

Peşəkar jurnalist, teleaparıcı Qulu Məhərrəmli çıxışında vurğuladı ki, yazıçı üçün ən əsas onun publisistikasıdır. Çünki bədiilik altında gizlənmək çox asandır. Publisistika isə dəqiqlik tələb edir.



Tədbirdə tanınmış publisist və qələm adamlarından olan Elçin Hüseynbəyli, Qəşəm Nəcəfzadə, Zemfira Məhərrəmli, Südabə Ağabalayeva və başqaları Vahid Məhərrəmlini bir yazıçı olmaqla yanaşı, bir dost, şəxsiyyət kimi də dəyərləndirdilər, onun fərdi keyfiyyətlərindən söz açdılar. Qeyd etdilər ki, Vahid Məhərrəmli çətin şəraitdə böyüsə də, öz həyat eşqini heç vaxt itirməyib. Həmçinin bildirdilər ki, onun dəsti-xətti o qədər səlis və rəvandır ki, oxucu sanki kitab oxuduğunu deyil, müəlliflə söhbətləşdiyini hiss edir.

Qeyd edək ki, ”Kəsilməyən atəş səsləri” kitabına müəllifin müxtəlif illərdə yazdığı hekayələr, publisistik məqalələr və ”Cəza” povesti daxildir. Müharibədən bəhs edən hekayələrin mövzusu həyatdan götürülüb, reallığı əks etdirir.

Kitabdakı nəzm və nəsr əsərləri ”Yazı masam səngər idi”, ”Yazılmamış gündəlik”, ”Nələr qaldı illərin o üzündə”, ”Düzü düz, əyrini əyri”, ”Alleqorik hekayələr”, ”Bir yarpaq poeziya”, ”Mənsur şeirlər”, ”Eşqdir mehrabı uca göylərin” başlıqlarında təqdim olunub.

**Şəfiqə Şəfa**